**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ**

# Daxili keyfiyyət təminatı barədə bəyannamə

Əsasnamə ADNSU Elmi Şurasının 27 oktyabr 2021-ci il
tarixli qərarı ilə (protokol № 2) qəbul edilmişdir

ADNSU-da daxili keyfiyyət təminatı barədə bəyannamə 2018-2020-ci illərdə icra olunan və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda ali təhsil sisteminin gücləndirilməsinə dəstək" Tvinniq layihəsi çərçivəsində bu layihənin "Tələbəyönümlü tədris proqramı konsepsiyasının inkişaf etdirilməsi və müzakirəsi" Ali Təhsil Məkanında (EHEA) Keyfiyyətin Təminatı (ENQA) prinsipləri əsasında hazırlanmışdır. Bəyannamə 7 bənddən ibarətdir.

1. Daxili keyfiyyət təminatı siyasəti.
2. Tədris prosesinin və təhsil proqramlarının keyfiyyət təminatı.
3. Təhsilalanların qiymətləndirilməsinin keyfiyyət təminatı.
4. Müəllim heyətinin keyfiyyət təminatı.
5. Təlim resursları və tələbələrə dəstək mexanizmləri.
6. Məlumat (informasiya) sistemləri.
7. Məlumatların ictimaiyyətə çatdırılması.

## 1. Daxili keyfiyyət təminatı siyasəti

Təhsilin keyfiyyəti sahəsində siyasət Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin təhsilin keyfiyyəti sahəsində siyasəti cəmiyyətin və dövlətin bu günkü tələblərinə uyğun yaradıcı düşüncəyə malik, sənayenin ayrı-ayrı sahələri üzrə inkişafını planlaşdıra, onu reallaşdıra və inlişaf etdirə bilən, gələcəkdə yüksək ixtisaslı mütəxəsis kimi fəaliyyət göstərə biləcək bakalavr, magistr və doktorantların səmərli hazırlanma sisteminin yaradılması və təşkilindən ibarətdir. Təhsilin keyfiyyəti sahəsində siyasət, onun strategiyası və prosedurları rəsmi statusa malikdir və hamı üçün açıqdır, tələbələr və digər maraqlı tərəflərin bu siyasətdə iştirakı təmin olunur. Təhsilin keyfiyyəti sahəsində siyasət aşağıdakı prinsiplərlə reallaşır:

- Keyfiyyətin təminatı sisteminin (KTS) təşkili;
- Universitetin keyfiyyət və standartlarının strategiyasının müəyyənləşdirilməsi;
- Universitetdə təhsilinin elmi axtarışlarla qarşılıqlı əlaqəsinin təmin edilməsi;
- Fakültələrin, kafedraların və digər struktur bölmələrin, eləcə də ayrı-ayrı fərdlərin keyfiyyətin təminatı üçün məsuliyyət daşıması;
- Keyfiyyətin təminatına təhsilalanların cəlb edilməsi;
- Təhsilin keyfiyyəti siyasətinin yerinə yetirilməsi, nəzarət və yoxlanılma yollarının müəyyənləşdirilməsi.

## 2. Tədris prosesinin və təhsil proqramlarının keyfiyyət təminatı

Universitet təhsil proqramlarının təsdiqi, dövrü olaraq nəzarət edilməsi və yoxlanılması üçün mexanizmlərə malik olmalıdır.

Təhsilalanların və digər maraqlı tərəflərin ali təhsilə etibarını qazanmaq üçün təhsil proqramları dəqiq planlaşdırılmalı, dövrü olaraq nəzarət edilməli və yeniləşdirilməlidir. Təhsil proqramlarının keyfiyyət təminatı üçün aşağıdakılar nəzərdə tutulur:

- Mükəmməl planlaşdırılmış təlim nəticələrinin hazırlanması.
- Fənlərin proqram və sillabuslarının dəqiq tərtib edilməsi.
- Proqramlarının dövrü olaraq yoxlanılması.
- Tədris prosesinin layihələndirilməsi, planlaşdırılması və həyata keçirilməsi.
- Təhsilalanların inkişaf və nailiyyətlərinin monitorinqi.
- Tədris prosesinə dair təhsilalanların fikirlərinin monitorinqi.
- Oxşar təhsil müəsisələrinin müvafiq mütəxəssislərindən proqramlara müntəzəm olaraq rəy alınması.
- İşə götürənlər və aidiyyatı olan digər qrumlardan rəylərin alinması.

### 3. Təhsilalanların qiymətləndirilməsinin keyfiyyət təminatı

Təhsilalanların bilik və bacarıqları bəyan edilmiş (dərc olunmuş) meyarlarla obyektiv, ardıcıl və müntəzəm qiymətləndirilməlidir.

Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi ali təhsilin ən lazımlı elemetlərindən biridir, onların gələcək karyerasını müəyyənləşdirən mühüm ünsürdür, həmçinin təhsilin effektivliyi haqqında mühüm məlumatların alınmasını təmin edir. Təhsilalanların qiymətləndirilməsində aşağıdakı prinsiplərə əməl edilir:

Qiymətləndirilmə meyarları qarşıya qoyulmuş təlim nəticələrinə və digər proqram məqsədlərinə nə dərəcədə nail olunmasını yoxlamaq üçün hazırlanır;

Prinsipləri aydın və bəyan edilmiş (dərc olunmuş) qiymətləndirmə üsullarından istifadə edilir.

Qiymətləndirmə üsulları təlim nəticələrinin əldə olunması və peşə hazırlığı üçün təhsilalanların lazımi bilik və bacarıqlarının olmasını müıəyyənləşdirir;

Qiymətləndirilmə zamanı bilik və bacarıqlar diaqnostik, formativ (kreativ) və summativ (bütün detalları nəzərə almaqla) qiymətləndirilir;

Qiymətləndirmə zamanı ancaq imtahan vasitəsilə mühakimə yürüdülmür. İstifadə edilən bütün ölçmə-dəyərləndirmə üsullarının nəticələri ümumiləşdirilir. Cari qiymət təhsilalanların imtahan qiymətləri ilə aralıq qiymətlərinin cəmindən ibarət olur. Aralıq qiymətləndirmə isə təhsilalanların semestr ərzində topladıqları balların cəmi kimi müəyyən edilir (aralıq imtahan, hazırlanmış təqdimat (sərbəst işlər), laboratoriya işlərinin yerinə yetirilməsi və semestr ərzindəki aktivliyə görə verilən ballar).

Təhsilalanın xəstələndiyi, yaxud onun imtahanda iştirak edə bilmədiyi dıgər hallarda və şəraitlərdə təkrar imtahan aparılması xüsusi Qaydalarla tənzimlənir və təhsilalanların nəzərinə çatdırılır.

Xüsusi istedadı ilə fərqlənən (təhsildə yüksək göstəricilərə malik olan, ADNSU-da keçirilən tələbələrin elmi-texniki konfransının mükafatçısı olan) tələbələrin stimullaşdırılması və onlara maddi yardımın göstərilməsi məqsədilə Elmi Şura tərəfindən müxtəlif adlı təqaüdlər təsis edilmişdir.

### 4. Müəllim heyətinin keyfiyyət təminatı

Təhsil müəsisəsi özünü peşəkar və kompetent müəllim heyəti ilə təmin etmək üçün müəyyən yollara və üsullara malik olmalıdır. Müəllim bütün təhsilalanlar üçün əlçatan olan

öyrənmə mənbəyi olmaqla tədris etdiyi sahədə mükəmməl bilik və bacarığa malik olmalı, bunları təhsilalanlara öyrətməyi, onların əldə etdikləri bilikləri və bacarıqları qiymətləndirməyi bacarmalıdır.

Universitet tədris prosesini həyata keçirmək üçün tədris heyətinə malikdir. Bura professor-müəllim heyəti, eləcə də tədris-köməkçi heyət (baş laborant, laborant, preparatorşu və s.) daxildir.

Professor-müəllim heyəti ilə təminat (müəllimlərin işə qəbulu) prosedurları onların minimum lazımi kompetensiyaları nəzərə alınmaqla aparılır.

Universitet müəllimləri müsabiqə yolu ilə seçki əsasında hər 5 idən bir seçilir. Müsabiqənin vaxtı və şərtləri “Respublika” qəzetində və universitetin rəsmi saytında 1 ay əvvəl elan edilir.

Universitetin professor-müəllim heyəti kompetensiyaları necə yerinə yetirməsindən asılı olaraq, reytinq balları ilə qiymətləndirilir. Müəllimlərin qiymətləndirilməsi qəbul edilmiş Qaydalar üzrə Elm və Tədris Analitik Mərkəzi təfindən aparılır. Reytinq ballarına müəllimlərin tələbələr tərəfindən anket sorğusu vasitəsilə qiymətləndirilməsinin nəticələri də daxil edilmişdir.

Professor-müəllim heyəti müəllimlik kompetensiyalarını daim inkişaf etdirir və genişləndirir. Öz vəzifələrini yüksək səviyyədə yerinə yetirən müəllimlər xüsusi qaydada mükafatlandırılır. Universitet zəif müəllimləri öz kompetensiyalarını lazımi səviyyəyə yüksəltmək imkanları ilə təmin edir.

Universitet öz vəzifələrini lazımınca yerinə yetirə bilməyən və kompetensiyalarını yaxşılaşdırmağa səy göstərməyən müəllimləri vəzifəsindən kənar etmə hüququna malikdir.

## 5. Təlim resursları və tələbələrə dəstək mexanizmləri

Universitet təhsil prosesində təhsilalanları müvafiq resurslarla və dəstək mexanizmləri ilə təmin etməlidir.

Universitet Elmi Şurasında təhsilalanların fərdi inkişaflarının yol xəritəsi təsdiq edilmiş və onlara təqdim edilmişdir.

Universitet təhsilalanları öyrənməyə yardımçı olan digər resurslarla (kitabxanalar, təlim mərkəzləri, laboratoriyalar, kompüterlər və s.) da təmin edir. E-Azii kitab evi 24 saatlıq iş rejimində fəaliyyət göstərir və gecə növbəsinə yazılan təhsilalanlar pulsuz kompleks yeməklə təmin edilirlər.

Təhsilalanlara dəstək mexanizmlərinə Unibook elektron tədris sistemi və tütor xidməti daxildir. Təlim resursları və tələbələrə digər dəstək xidmətləri tələbələrin ehtiyaclarına görə planlaşdırılır və hər bir tələbə üçün əlçatandır. Hər bir tədris semestri başlanmadan öncə elektron sistemə tədris olunacaq bütün fənlər üzrə aşağıdakı kontentlər müəllimlər tərəfindən yüklənir:

- Fənnin aktiv və passiv sillabusu;
- Mühazirə mətni;
- Müəllimin mövzular üzrə məzmuna uyğun təqdimatı;
- Fənni ən azı 75% əhatə edən dərslik və ya dərs vəsaiti;
- Fənnin məzmunu.

Universitet tələbələrə dəstək xidmətlərinin effektivliyinə və yetərli olmasına dövrü olaraq nəzarət edir, yoxlayir və təkmilləşdirir.

Tələbələrin meyil və maraqlarının, psixi inkişafının, psixoloji vəziyyətinin, təlim fəaliyyətinin, sosial-mənəvi problemlərinin öyrənilməsini və tələbələrə öz potensiallarını gerçəkləşdirməyə psixoloji dəstəyin göstərilməsini təmin etmək məqsədilə 2021/2022-ci tədris ilindən etibarən universitetdə psixoloji xidmət yaradılmışdır.

## 6. Məlumat (informasiya) sistemləri

Universitet təhsil proqramlarının və digər fəaliyyətlərinin effektli idarə edilməsi üçün müvafiq məlumatların toplanması, onların təhlili və istifadəsini təmin etməlidir.

Universitetin özünütəhlili, yəni özü haqındakı məlumatları təhlil etməsi effektli keyfiyyət təminatının əsasıdır. Universitetin öz fəaliyyəti haqqındakı məlumatların toplanması və təhlili mexanizmlərinə malik olması zəruridir. Bu olmadan nə yaxşı işləyir?, nəyə diqqət yetirilməlidir? kimi suallara cavab vermək, eləcə də innovativ islahatların nəticəsi haqqında məlumat almaq mümkün deyil. Universitetin keyfiyyətlə bağlı məlumat sistemi aşağıdakı məlumatların cəmindən ibarətdir:

- Təhsilalanların inkişafı və müvəffəqiyyət göstəriciləri;
- Təhsilalanların təhsil proqramlarından razılığı (məmnunluğu);
- Tədrisin effektivliyi;
- Təhsilalanların populyasiyasının profili;
- Təlim resurslarının əldə edilməsi və onlara çəkilən xərclər;
- Məzunların işlə təminatı.
- Universitetin özünü Avropa Ali Təhsil Məkanında (EHEA) olan oxşar universitetlə müqayisə etməsinin nəticələri. Bu, universitetin fəaliyyətinin yaxşılaşdırılmasına hesablanmış bir müqayisədir.

## 7. Məlumatların ictimaiyyətə çatdırılması

Universitet bütün proqram və qərarlarını, eləcə də digər fəaliyyət sahələrində kəmiyyət və keyfiyyət göstəriciləri haqqında obyektiv məlumatları dərc etməli və onu dövrü olaraq yeniləşdirməlidir. Rektorun hər semestrdə keçirdiyi açıq mikrofon günləri professor-müəllim heyəti, təhsilalanlar və onların valideyinləri tərəfindən qaldırılan məsələlərin yerində obyektiv həll edilməsini təmin edir.

İctimai rolunu həyata keçirərkən unuversitet təhsil proqramı, nəzərdə tutulmuş təlim nəticələri, verilən ixtisaslar, öyrətmə, öyrənmə və qiymətləndirmə prosedurları haqqında məlumatların əlçatan olmasına məsuliyyət daşıyir.

Dərc edilmiş məlumatlarda həmçinin universitet məzunlarının hazırda işlədikləri yerlər, eləcə də hazırkı tələbə populyasiyasının profili göstərilə bilər.

Rektor prof. Mustafa Babanlı